# Şuşanın ilk gerbi bu yerlərin tarixən Azərbaycana məxsus olduğunu təsdiqləyir

**Böyük zəfərin qürurunu yaşayan Azərbaycan xalqı üçün bu il tarixə "Şuşa ili" kimi yazılır. Prezident İlham Əliyevin bununla bağlı imzaladığı sərəncamda bildirilir ki, Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır.**

Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır: "Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır".

Azərbaycanın böyük xanlıqlarından olan Qarabağ xanlığı əslində 1805-ci ildə imzalanan Kürəkçay müqaviləsindən sonra Rusiyaya qatılıb. 1822-ci ildə isə xanlıq ləğv edildikdən sonra əyalətə çevrilib. 1840-cı il inzibati-ərazi islahatı nəticəsində Qarabağ əyalətinin mərkəzi Şuşa şəhəri olmaqla Şuşa qəzası adlandırılıb və Kaspi vilayətinin tərkibinə verilib.

1846-cı ildə Kaspi vilayəti ləğv olunub. Bundan sonra Şuşa qəzası yeni yaradılan Şamaxı quberniyasının tərkibinə daxil edilib. 1867-ci ildə Yelizavetpol



(Gəncə) quberniyası təşkil ediləndə Şuşa qəzası da onun tərkibinə keçib. 1883-cü ildə Şuşa qəzasının ərazisində iki yeni qəza - Cavanşir və Cəbrayıl qəzaları yaradılıb.

Bu tarixi hadisələr baş verməzdən əvvəl çar I Pyotr tərəfindən "Şəhərlərin gerblərinin tərtibi haqqında" fərman verilib. Həmin fərmana uyğun olaraq, XIX əsrin sonunda Rusiyada 700-dən çox şəhərin hər birinin öz gerbi mövcud idi.

1785-ci ildə isə Rusiya hökuməti tərəfindən "Şəhər əsasnaməsi" qəbul edilib. Bu əsasnamənin 28-ci maddəsində qeyd olunub: "Hər bir şəhərin öz gerbi olmalı və ondan bütün şəhər işlərində istifadə edilməlidir". Qeyd etdiyimiz kimi, həmin vaxt Şuşa - Kaspi vilayəti Yelizavetpol quberniyası Şuşa qəzasının mərkəzi idi. Qəza şəhərlərinin əksəriyyəti kimi, Şuşanın da öz gerbi vardı.

Rusiya imperiyasının yeni inzibati-ərazi bölgüsünə görə, 1840-cı ildə qəza şəhəri statusunda Kaspi vilayətinin tərkibində olan Şuşanın gerbi 1843-cü il mayın 21-də imperator I Nikolay tərəfindən təsdiqlənib. Gerb qalxan şəklində hazırlanıb. Qədim Şuşanın gerbinin ikiyə bölünmüş qalxanvari lövhəsinin yarıdan yuxarı hissəsi Kaspi vilayətinin gerbindəki təsvirlərin eyni olub.

Gerbdə iki yerə bölünmüş qızılı fonun bir hissəsində - sağ tərəfdə ayaq üstə durmuş pələng, solda isə yerdən püskürən alov təsvir edilib. Tədqiqatçılar bu fikirdədirlər ki, Şuşanın da, Bakının da gerblərində əks edilmiş alov dilləri Azərbaycanın odlar ölkəsi olmasına işarədir.

Şuşanın gerbinin yarıdan aşağı hissəsində yaşıl çəmənlikdə yəhərli, cilovlu Qarabağ atı təsvir edilib. Araşdırıcılar bildirirlər ki, bu təsvir həmin ərazidə cins atların yetişdirildiyini, həmçinin Qarabağda atçılığın inkişafını, yəhər və yüyənin də yerli istehsal olduğunu əks etdirir. Gerb həmçinin yurdumuzun təbii sərvətlərini əks etdirmək, eləcə də rənglərin harmoniyası baxımından diqqət çəkir.

Şuşanın gerbi aydın şəkildə göstərir ki, bu ərazinin ermənilərə heç bir aidiyyəti olmayıb. Çünki gerbdə Azərbaycanın təbii sərvətləri, xalqımızın məşğuliyyəti, həyat tərzi, arzuları, duyğuları çox aydın və mükəmməl şəkildə təsvir edilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 24 iyun.- S.7.